Hakim Rauf Əliyev
Bakı Ağır Cinayətlər Məhkəməsi
S. Vurğun küç. 30
Bakı 1000
Azərbaycan Respublikası
Fax: +994 12 493-36-22
E-mail: contact@bakugravecrimescourt.gov.az

Baş Prokuror Zakir Bəkir oğlu Qaralov
Nigar Rəfibəyli küçəsi 7
Bakı 1001
Azərbaycan Respublikası
Email: z.qaralov@prosecutor.gov.az

HUMAN RIGHTS HOUSE FOUNDATION

Oslo və Cenevrə, 12 may 2014

**Mövzu: Anar Məmmədli, Bəşir Süleymanlı və Elnur Məmmədovun işi**

Möhtərəm Hakim,
Cənab Baş Prokuror,

Zəhmət olmasa, Birləşmiş Millətlər Təşkilatının 2 müstəqil ekspertinin, dinc toplaşma və birləşmə hüquqları üzrə və insan hüquqları müdafiəçiləri üzrə Xüsusi Məruzəçilərin Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) sədri Anar Məmmədlinin, SMDT-nin icraçı direktoru Bəşir Süleymanlı və Könüllülərin Beynəlxalq Əməkdaşlığı (KBƏ) İctimai Birliyinin rəhbəri Elnur Məmmədovun hazırda davam edən məhkəmə işi üzrə 9 may 2014-cü il tarixli birgə bəyanatına diqqət yetirin.

Birləşmiş Millətlər Təşkilatının Xüsusi Məruzəçiləri birgə bəyanatda Azərbaycan hakimiyyətini Anar Məmmədliyə, Bəşir Süleymanlıya və Elnur Məmmədova qarşı ittihamlara xitam verməyə və 16 dekabr 2013-cü ildən həbsdə olan Anar Məmmədlini dərhal azad etməyə çağırır.

BMT -nin Xüsusi Məruzəçiləri BMT -nin İnsan Hüquqları Şurası tərəfindən insan hüquqları sahəsində beynəlxalq hüququn pozulması ilə bağlı sorğular keçirmək və xüsusi təcili hallarda müdaxilə etmək üçün təyin olunmuş müstəqil ekspertlərdir. İnsan Hüquqları Şurası tərəfindən təyin olunmuş bütün şəxslərin beynəlxalq hüquq üzrə müstəsna təcrübəsi və böyük nəticələri vardır. Bu iki müstəqil ekspert spesifik olaraq bu iş üzrə ona görə şərh verir ki, bu iş birbaşa olaraq birləşmə azadlığı və hüquq müdafiəçisi olmaq hüququ ilə bağlıdır.

Azərbaycan Respublikası hüquq müdafiəçisi olmaq hüququnun irəli gəldiyi birləşmə azadlığı hüququnu inkişaf etdirən 16 dekabr 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı imzalamışdır. BMT-nin Hüquq Müdafiəçiləri haqqında Bəyannaməsi[1] həmin prinsipləri müəyyənləşdirir.

BMT-nin İnsan Hüquqları Şurasının 21 mart 2013-cü il tarixli 22/6 saylı qətnaməsində qeyd olunur ki, məhkəmə hakimiyyəti çərçivəsində, hüquq müdafiəçilərinə qarşı cinayət işləri də daxil olmaqla, etibarsız sübutların və qanunsuz aparılan istintaqların istifadəsinin qarşısının alınması üçün tədbirlər mövcud olmalıdır.

BMT-nin birgə bəyanatında xüsusi məruzəçilər Anar Məmmədlinin, Bəşir Süleymanlının və Elnur Məmmədovun "9 oktyabr 2013-cü il prezident seçkiləri ərəfəsində qanuni vəzifələrini yerinə yetirərək seçki və insan hüquqları pozuntularını ifşa etdiklərinə görə onlardan qisas alınmaq məqsədilə ittiham

[1] Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 9 dekabr 1998-ci il 53/144 saylı qətnaməsilə qəbul olunmuş Cəmiyyətdəki Fərdlərin, Qrupların və Orqanların Hamılıqla Tanınan İnsan Hüquqlarının və Əsas Azadlıqların Təşviqi və Müdafiəsi üzrə Hüquq və Vəzifələrinə dair Bəyannaməsi.

edildiklərini"[2] təsdiq edirlər.

Anar Məmmədli, Bəşir Süleymanlı və Elnur Məmmədova qarşı açılan cinayət işi onların seçki müşahidəsi ilə bağlı peşə fəaliyyətinə görədir. Biz əslində SMDT və KBƏ-yə qarşı istintaqın təşkilatın 9 oktyabr 2013-cü il prezident seçkiləri ilə bağlı fəaliyyəti və nəticələri ilə əlaqəli olduğunu düşünürük.

Məhkəmə 21 aprel 2014-cü il tarixindən bəri bu işlə bağlı şahidləri dinləyir. İnsan Hüquqları Evi Fondu nümayəndəsi iştirak etdiyi 5 may və 6 may günü keçirilən məhkəmə proseslərində müşahidə etmişdir ki, şahidlər bu işlə bağlı müvafiq məlumat vermir, sizin məhkəmə isə iş üzrə dinləmələrində hüquq müdafiəçilərini gördükləri işə görə hədəfə alınmaqdan qoruyan beynəlxalq hüquq və standartları pozaraq təqsirləndirilənləri etibarsız sübutlar və qanunsuz aparılan istintaq əsasında artıq günahkar hesab etdiyi təəssüratını yaradır.

**Biz Baş Prokurorluğu BMT-nin müstəqil ekspertlərinin təhlillərinə əməl edərək Anar Məmmədliyə, Bəşir Süleymanlı və Elnur Məmmədova qarşı ittihamlara dərhal xitam verməyə çağırırıq.**

**Biz həmçinin Bakı Ağır Cinayətlər Məhkəməsini də Anar Məmmədlini dərhal azadlığa buraxmağa çağırırıq.**

Hörmətlə,



Maria Dahle
İcraçı Direktor

İnsan Hüquqları Evi Fondu

**Əlavə:** BMT **-** nin dinc toplaşma və birləşmə hüquqları üzrə və insan hüquqları müdafiəçiləri üzrə Xüsusi Məruzəçilərin 9 may 2014-cü il bəyanatının nüsxəsi

***İnsan Hüquqları Evi Şəbəkəsi haqqında (www.humanrightshouse.org)***

*İnsan Hüquqları Evi Şəbəkəsi (İHEŞ) Qərbi Avropa, Şərqi və Şimal Şərqi Afrika, Şərqi Avropa, Cənubi Qafqaz və Qərbi Balkanların 13 ölkəsində, 18 müstəqil İnsan Hüququ Evində insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən 90 QHT-ni özündə birləşdirir. İHEŞ-nin məqsədi yerlərdə hüquq müdafiəsi təşkilatlarını qorumaq, səlahiyyət vermək və dəstəkləmək və onları beynəlxalq İnsan Hüququ Evi Şəbəkəsində birləşdirməkdir.*

*Azərbaycan İnsan Hüququ Evi İHEŞ-nin üzvlərindən biri olub Azərbaycanda müstəqil görüş yeri, resurs mərkəzi və insan hüququ təşkilatlarının əlaqələndiricisi kimi fəaliyyət göstərir. 2010-cu ildə gənc fəal, müstəqil jurnalist və hüquqşünaslar daxil olmaqla 6000 hüquq müdafiəçisi əsas məqsədi Azərbaycanda insan hüquqlarının qorunması və inkişafı olan Azərbaycan İnsan Hüququ Evinin imkanlarından istifadə edib.*

*Mərkəzi Osloda (Norveç) yerləşən, Cenevrədə (İsveçrə)ofisi olan İnsan Hüququ Evi Fondu (İHEF) İHEŞ-nin katibliyidir. İHEF Cənubi Qafqaz Hüquq Müdafiəçiləri Şəbəkəsinin və yaranmaqda olan Balkan Hüquq Mudafiəçiləri Şəbəkəsini beynəlxalq əməkdaşıdır.*

*İHEF-nin BMT-də məşvərətçi statusu, İHEŞ-nın isə Avropa Şurasında iştirakçı statusu var*

[2] Bəyanat bu internet ünvanındadır http://humanrightshouse.org/Articles/20148.html

NEWS RELEASE

UNITED NATIONS HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

**BMT Ekspertləri Azərbaycanı hüquq müdafiəçilərinə qarşı ittihamlara xitam verməyə çağırır**

Cenevrə (9 may 2014) –Cümə günü, Birləşmiş Millətlər Təşkilatının 2 müstəqil eksperti Azərbaycanda 2013-cü il prezident seçkilərindən sonra 3 hüquq müdafiəçisinə qarşı irəli sürülmüş ittihamlarla bağlı ciddi narahatlığını bildirib.

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) rəhbəri Anar Məmmədli, təşkilatın icraçı direktoru Bəşir Süleymanlı və Könüllülərin Beynəlxalq Əməkdaşlığı İctimai Birliyinin rəhbəri Elnur Məmmədovun Bakıda mütəşəkkil qrup tərəfindən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və vəzifədən sui-istifadə etmək ittihamı üzrə məhkəməsi başlayıb. Onlar 12 ilə qədər həbs cəzası ala bilər. Anar Məmmədli isə 16 dekabr 2013-cü ildən həbsdədir.

"Biz hər üç hüquq müdafiəçisinin 9 oktyabr 2013-cü il prezident seçkiləri ərəfəsində qanuni vəzifələrini yerinə yetirərərək seçki və insan hüquqları pozuntularını ifşa etdiklərinə görə onlardan qisas alınmaq məqsədilə ittiham olunmasından ciddi narahatıq. Onlara qarşı irəli sürülən bütün ittihamlara xitam verilməli və Anar Məmmədli dərhal azadlığa buraxılmalıdır", deyə BMT -nin Birləşmək və toplaşmaq Azadlığı üzrə Xüsusi Məruzəçisi Maina Kiai bildirib.

Anar Məmmədli cənab Kiai tərəfindən 2013-cü ilin yanvar ayında Cenevrədə seçki dövründə dinc toplaşmaq və birləşmək hüquqlarından istifadə üzrə hesabata hazırlıq üçün çağırılmış məşvərət üzvlərindən biri olub. SMDT qanunvericilikdə hədsiz bürokratik proseslər olduğu üçün qeydiyyat məsələsində bir çox çətinliklərlə üzləşmişdir.

"Vətəndaş cəmiyyəti bu cür kritik vəziyyətlərdə şəffaf və ədalətli seçkiləri təmin etmək üçün ictimai azadlıqların istifadəsinə nəzarət etməkdə vacib rol oynayır. Hüquq müdafiəçilərini susdurmaq bütövlükdə Azərbaycan vətəndaş cəmiyyətinə dağıdıcı təsir etməklə qalmayıb, 2013-cü il prezident seçkilərinə silinməz ləkə vurur", BMT-nin Hüquq Müdafiəçiləri üzrə Xüsusi Məruzəçisi Marqaret Sekaggiya əlavə edib.

Ekspertlər Azərbaycan hökumətinə özlərinin prezident seçkiləri ərəfəsində hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti təşkilatlarının rollarını tanımağa və onlara şərait yaratmağa çağıran 4 oktyabr 2013-cü il tarixli bəyanatını xatırladıb.

"Seçkilər dövründə dövlətlər əsas hüquq olan toplaşmaq hüququnun qorunması və asanlaşdırılması üçün daha çox səy göstərməlidir", deyə ekspertlər təkrar qeyd edib. "Bu seçki sonrası dövrlərə də şamil edilməlidir. Beləki, seçkidən sonra da hüquq müdafiəçiləri eyni kobudluğa və təhqirə məruz qalırlar ",- deyə ekspertlər əlavə edib.

Ötən ay Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Qeyri-Hökumət Təşkilatları üzrə Komitəsinə üzv seçildiyi ərəfədə 3 hüquq müdafiəçisinə qarşı ittiham elan olunması narahatlığı daha da artırır. Bu Komitə QHT-lərə məşvərətçi status verilməsi üçün onlar tərəfindən təqdim olunan müraciətləri nəzərə almaqla onların müxtəlif BMT insan hüququ mexanizmlərinə girişi üçün şərait yaradır. "Əgər qeyd olunan üç hüquq müdafiəçisi təqsirli bilinərsə, bu Azərbaycanın BMT-nin sözügedən Komitəsinə seçilməsinin mahiyyətinə tam zidd olacaq", deyərək ekspertlər fikirlərini yekunlaşdırıb.

Azərbaycan İnsan Hüquqları Şurasının müstəqil ekspertlərinə də dəvət göndərib və cənab Kiai tezliklə ölkəyə səfər edəcəyinə ümid edir.

Bəyanat buradan əldə oluna bilər.

http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=13829&LangID=E